public council.az

ictimaishura.az

# İCTİMAİ ŞURA
# PUBLIC COUNCIL



"Mən bir daha demək istəyirəm ki, ictimai nəzarət olmasa, biz istəyimizə nail ola bilmərik. İctimai nəzarət nə deməkdir? Vətəndaşlar daha fəal olmalıdırlar. Onlar xoşagəlməz hallarla üzləşəndə bu barədə məlumat verməlidirlər ki, biz işləri tənzimləyək, xoşagəlməz halların qarşısını alaq."

***İlham Əliyev***

Azərbaycan Respublikasının
Prezidenti

№ 01

İqtisadiyyat Nazirliyi yanında
İctimai Şuranın fəaliyyəti
2021 - 2023

# İqtisadiyyat Nazirliyi yanında ictimai şuranın fəaliyyəti 2021- 2023

**PUBLICCOUNCIL.AZ**
**ICTIMAISHURA.AZ**

***İnformasiya bülleteni açıq mənbələrdə yayımlanan məlumatlar əsasında hazırlanıb.***

Bakı şəhəri - 2023

# İqtisadiyyat Nazirliyi yanında ictimai şuranın fəaliyyəti 2021- 2023

“İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən İqtisadiyyat Nazirliyinin fəaliyyət istiqamətləri və sahələri üzrə hüquqi aktların qəbulunda, ictimai nəzarətin təşkilində vətəndaşların və vətəndaş cəmiyyəti institutlarının iştirakının təmin edilməsi ilə əlaqədar iqtisadiyyat nazirinin əmri ilə (16 iyul 2021-ci il F-83 saylı əmri) Nazirliyin yanında İctimai şuranın formalaşdırılması üçün seçkilərin təşkili və keçirilməsi məqsədilə 9 nəfərdən ibarət seçki komissiyası yaradılmışdır.

Seçki komissiyasının ilk iclasında gündəlikdə duran məsələlər müzakirə olunmuş, o cümlədən İctimai şuranın üzvlərinin say həddi 11 nəfər müəyyən edilmişdir.

İqtisadiyyat Nazirliyi yanında İctimai şuranın üzvlüyünə namizədlər sənədlərini 2021-ci il 12 iyul tarixindən etibarən 20 iş günü müddətində e-mail (ictimaishura@economy.gov.az) vasitəsi ilə qəbul edilib.
Seçki komissiyası 14 namizədin sənədlərini təsdiq edib. Seçkidə səs vermək məqsədi ilə 120 vətəndaş cəmiyyəti institutunun nümayəndəsi qeydə alınıb.

Seçki Komissiyasının qərarına əsasən, İctimai şuraya seçkilər 21 avqust 2021-ci il tarixində saat 12:00-dan 14:00-dək “İqtisadi Elmi Tədqiqat İnstitutu”nun inzibati binasında keçirilmişdir.
İlkin mərhələdə Rövşən Ağayev (“İqtisadi Təşəbbüslərə Yardım” İctimai Birliyi), Rəşad Həsənov (“İqtisadi və Sosial İnkişaf Mərkəzi” İctimai Birliyi), Ədalət Muradov (ADİU Həmkarlar İttifaqı), Əliməmməd Nuriyev (“Şəffaflıq - Azərbaycan” Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi) İqtisadiyyat Nazirliyi yanında İctimai Şuranın üzvü seçiliblər.

Boş qalan 7 yer üçün 22 avqust 2021-ci il tarixində seçkilər keçirilib. Səsvermənin nəticələrinə əsasən, vətəndaş cəmiyyəti institutlarının nümayəndələri - Azadov Elnur, Babayeva Səkinə, İsayev Fərid, Kərimov Nuran, Qaraşov Fərhad, Nuriyev Zakir və Vəliyev İlqar İctimai şuraya üzv seçiliblər.

## İqtisadiyyat Nazirliyi yanında ictimai şuranın tərkibi

1. **Ədalət Muradov** - ADİU Həmkarlar İttifaqı – İctimai Şuranın sədri
2. **Zakir Nuriyev** - Azərbaycan Banklar Assosiasiyası - İctimai Şuranın sədr müavini
3. **Fərhad Qaraşov** - "Azərbaycan Nar İstehsalçıları və İxracatçıları Assosiasiyası" İctimai Birliyi - İctimai Şuranın katibi
4. **Rövşən Ağayev** - "İqtisadi Təşəbbüslərə Yardım" İctimai Birliyi
5. **Elnur Azadov** - "Rieltorlar assosiasiyası" İctimai Birliyi
6. **Səkinə Babayeva** - "Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası" İctimai Birliyi
7. **Rəşad Həsənov** - "İqtisadi və Sosial İnkişaf Mərkəzi" İctimai Birliyi
8. **Nuran Kərimov** - "Azərbaycanda Amerika Ticarət Palatası" İctimai Birliyi
9. **Əliməmməd Nuriyev** - "Şəffaflıq - Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi
10. **İlqar Vəliyev** - Vətəndaşların təşəbbüs qrupu
11. **Fərid İsayev -** Alman-Azərbaycan Xarici Ticarət Palatası ( dövlət qurumunda vəzifəyə təyin olunduğu üçün ictimai şurada fəaliyyətini dayandırıb)

# İqtisadiyyat Nazirliyi yanında İctimai Şuranın ilk iclası keçirilib




## 09 sentyabr 2021

İctimai Şura üzvlüyünə seçkilərin təşkili məqsədilə yaradılmış seçki komissiyasının sədri, İqtisadiyyat Nazirliyinin Aparat rəhbəri Ayaz Əliyev Şuraya seçkilərin qaydalara uyğun təşkili üçün lazımi şəraitin yaradıldığını, seçkilərin ədalətli və şəffaf keçirildiyini diqqətə çatdırıb. Seçki komissiyasının sədri Şura üzvlərini təbrik edib, Nazirliklə əməkdaşlıqda uğurlar arzulayıb.

Tədbirdə İctimai Şuranın reqlamentinin, Tədbirlər Planının hazırlanması, kommunikasiyasının qurulması, fəaliyyətinin nəticəyönümlülüyünün və hesabatlılığının təmin olunması və s. məsələlər barədə müzakirələr aparılıb.

Sonra Şura üzvlərinin iştirakı ilə İqtisadiyyat Nazirliyi yanında İctimai Şuranın sədrinin, sədr müavininin və katibinin seçilməsi üçün səsvermə keçirilib. Səsvermənin nəticələrinə əsasən, Azərbaycan Dövlət İqtisad Universitetinin Həmkarlar İttifaqını təmsil edən Ədalət Muradov sədr, Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev sədr müavini, “Azərbaycan Nar İstehsalçıları və İxracatçıları Assosiasiyası” İctimai Birliyinin sədri Fərhad Qaraşov isə katib seçilib.

## İqtisadiyyat Nazirliyində İctimai Şura üzvləri ilə görüş keçirilib



**16 sentyabr 2021**

İqtisadiyyat Nazirliyi yanında yeni yaradılmış İctimai şuranın üzvləri ilə görüş olub. İctimai şuranın yaradılmasının əhəmiyyətindən danışan iqtisadiyyat naziri ölkəmizdə dövlət-vətəndaş münasibətlərinin inkişafında yeni mərhələnin başlandığını, vətəndaş cəmiyyəti institutları ilə əlaqələrin gücləndirilməsi, şəffaflıq prinsipinin təmin olunması ilə bağlı mühüm vəzifələrin müəyyən olunduğunu vurğulayıb. Qeyd edilib ki, cəmiyyətlə qarşılıqlı fəaliyyətin gücləndirilməsi, sağlam dialoqun qurulması, qərarların qəbulunda ictimai rəyin, vətəndaş maraqlarının nəzərə alınması və funksiyalarından irəli gələn digər məsələlərdə səmərəli fəaliyyəti üçün İqtisadiyyat Nazirliyi yanında İctimai şuraya lazımi şərait yaradılacaq.

**Nazir Mikayıl Cabbarov** İctimai şuraya seçilmələri münasibətilə şura üzvlərini təbrik edib, şuranın fəaliyyətinin, Nazirliklə əməkdaşlığının səmərəli qurulacağına əminliyini bildirib, üzvlərə fəaliyyətində uğurlar arzulayıb.

İctimai şuranın üzvləri vətəndaş cəmiyyəti tərəfindən onlara göstərilən seçici etimadını doğruldacaqlarını vurğulayıb, şuranın fəaliyyətinin iqtisadi həyatın müxtəlif məsələlərin ictimai müzakirəsinin və həllinin daha səmərəli təşkilinə xidmət edəcəyini bildirib, səmimi görüşün keçirilməsinə görə minnətdarlıq ediblər.
Görüşdə İctimai şura ilə əməkdaşlıq istiqamətləri, şuranın fəaliyyətinin nəticəyönümlülüyünün və hesabatlılığının təmin olunması, vətəndaş-ictimai şura-nazirlik kommunikasiyasının təşkili və s. barədə müzakirələr aparılıb.
İqtisadiyyat Nazirliyi yanında İctimai Şuranın növbəti iclası keçirilib. Onlayn formatda keçirilmiş iclasda İctimai Şuranın reqlamenti müzakirə edilib, Şura üzvlərinin təklif, rəy və tövsiyələri dinlənilib.

## İqtisadiyyat Nazirliyi yanında İctimai Şuranın iclası keçirilib




**20 yanvar 2022**

İclasda həmçinin, işçi qrupların tərkibi, 2022-ci il üçün Fəaliyyət Planı təsdiq edilib, peşəkar birlik və assosiasiyalarla keçirilməsi nəzərdə tutulan ilk görüş barədə fikir mübadiləsi aparılıb.

# İqtisadiyyat Nazirliyi yanında İctimai Şurada müzakirə təşkil edilib




## 24 fevral 2022

İqtisadiyyat Nazirliyi yanında İctimai Şuranın Fəaliyyət Planına uyğun olaraq, iqtisadi sahədə fəaliyyət göstərən ictimai birliklər və assosiasiyalarla ictimai müzakirələrə başlanıb. İlk ictimai müzakirə Azərbaycan Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyası (AMTA) ilə keçirilib.

Onlayn formatda təşkil edilmiş tədbirdə Şura üzvləri və sahibkarlar aidiyyəti sahə ilə bağlı cari vəziyyəti və gələcək perspektivləri müzakirə edib, qarşılıqlı fikir mübadiləsi aparıblar.

Müzakirə zamanı sahibkarların sualları cavablandırılıb. Müzakirələrdə səsləndirilən təkliflər araşdırılacaq və aidiyyəti qurumlara təqdim ediləcəkdir.

## İqtisadiyyat Nazirliyi yanında İctimai Şuranın üzvləri Dövlət Vergi Xidmətinin rəhbərliyi ilə görüşüb

Martın 31-də İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli İqtisadiyyat Nazirliyi yanında İctimai Şuranın üzvləri ilə görüşüb. Görüşdə Dövlət Vergi Xidmətinin fəaliyyəti və vergitutma sahəsində maraq doğuran məsələlər, İctimai Şuranın fəaliyyət istiqamətləri və ictimai iştirakçılıq prosesinə verə biləcəyi töhfələr müzakirə edilib.



Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli görüş iştirakçılarını salamlayaraq, İctimai Şura ilə əməkdaşlıqla bağlı fikirlərini bölüşüb, vergi sistemində aparılan islahatlar, xidmətin rəqəmsal imkanları, ortamüddətli perspektivdə vergi siyasətinin əsas istiqamətləri barədə iştirakçılara məlumat verib. Qeyd olunub ki, İqtisadiyyat Nazirliyi yanında yaradılmış İctimai Şura nazirliyin və onun strukturuna daxil olan qurumların fəaliyyətində ictimai iştirakçılığın təmin edilməsinə mühüm töhfə verəcək bir institutdur. Şuranın effektiv fəaliyyəti icra orqanlarının fəaliyyətində şəffaflığın, ictimai nəzarətin təmin edilməsində mühüm rol oynayır. DVX rəisi İctimai Şuranın və ictimai əməkdaşlığın faydasını vurğulayaraq xidmətin sahibkarlıq assosiasiyaları, ictimai birliklər və ekspertlərlə geniş iş təcrübəsi olduğunu diqqətə çatdırıb. Bildirilib ki, “kölgə

iqtisadiyyatı"nın miqyasının azaldılması, dövlət-biznes münasibətlərində şəffaflığın təmin edilməsi ilə bağlı islahatların həyata keçirilməsi zamanı, eləcə də vergi qanunvericiliyinin təkmilləşdirilməsi prosesində hər zaman ictimai məsləhətləşmələrə önəm verilib.

DVX-də müasir rəqəmsal alətlərin və analitik potensialın mövcud olduğunu qeyd edən Orxan Nəzərli gələcəkdə vergi ödəyicilərinə xidmət sahəsində nəzərdə tutulan rəqəmsal yeniliklər barədə də məlumat verib. Bildirilib ki, Dövlət Vergi Xidməti iqtisadi prosesləri, xüsusilə də iqtisadiyyatda "ağarma indikatorları"nı yaxından təhlil edir.

Son illərdə vergi ödəyicilərinin əməliyyatları üzrə risk səviyyələrini təhlil və müəyyən edən müxtəlif rəqəmsal alətlərdən istifadə olunur, vergi inzibatçılığının aktiv rəqəmsallaşdırılması prosesinə xüsusi önəm verilir. Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, İctimai Şuranın sədri Ədalət Muradov cəmiyyət həyatının inkişafı baxımından Şuranın əhəmiyyəti və əsas fəaliyyət istiqamətləri barədə danışıb.

> 2022-ci ildə vergi ödəyicilərinə xidmət sahəsində bir sıra yeniliklərin tətbiqinə diqqət çəkən DVX rəisi onların daha çox kiçik və orta sahibkarlığın vergi öhdəliklərinin icrası, vergi hesabatlarının göndərilməsi prosesinin sadələşdirilməsinə istiqamətləndiyini qeyd edib.

Qeyd olunub ki, Şuranın fəaliyyəti, əsasən, cəmiyyətlə qarşılıqlı əlaqələrin gücləndirilməsindən, sağlam dialoqun qurulmasından, qərarların qəbulunda ictimai rəyin, vətəndaş maraqlarının nəzərə alınmasından ibarətdir.

Tədbir müzakirələrlə davam etdirilib, İctimai Şura üzvlərini narahat edən, həmçinin vergitutmanın müxtəlif aspektlərini əhatə edən məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Şura üzvlərindən Azərbaycan Banklar Assosiasiyasının sədri, İctimai Şuranın sədr müavini Zakir Nuriyev bank sektorunda mövcud olan vergi məsələləri, Azərbaycan Nar İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri, Şuranın katibi Fərhad Qaraşov kənd təsərrüfatı istehsalçılarının rastlaşdığı bir sıra çətinliklər, "Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası" İctimai Birliyinin sədri Səkinə Babayeva vergi uçotu, mənfəət və xərclərin rəsmiləşdirilməsi ilə bağlı məsələlər, "İqtisadi və Sosial İnkişaf Mərkəzi" İctimai Birliyinin rəhbəri Rəşad Həsənov yerli əczaçılıq sənayesinin inkişafı üçün zəruri olan vergi təşviqləri, "Şəffaflıq - Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyinin rəhbəri Əliməmməd Nuriyev mikrosahibkarlığın vergi uçotu məsələləri, "Rieltorlar assosiasiyası" İctimai Birliyinin rəhbəri Elnur Azadov əmlakın kirayə verilməsi sahəsində mövcud olan çətinliklər barədə fikirlərini bölüşüblər.

Hazırda Şuranın tərkibində şəffaflığın, hesabatlılığın təmin edilməsi, peşəkar birliklər, QHT-lərlə kommunikasiya, rəy və təkliflərin hazırlanması və ümumiləşdirilməsi üzrə dörd İşçi Qrupu fəaliyyət göstərir.

Dövlət Vergi Xidmətini rəisi Orxan Nəzərli, xidmətin rəis müavini Samirə Musayeva, Bəyannamələr və kameral vergi yoxlamalarına nəzarət baş idarəsinin rəisi Zaur Fətizadə, habelə DVX-nin digər rəhbər vəzifəli şəxsləri qaldırılmış məsələlərə müvafiq şərhlər veriblər, bir sıra təkliflərin üzərində Şura üzvləri ilə birgə əməkdaşlıq çərçivəsində işlərin davam etdirilməsi razılaşdırılıb.
İctimai Şuranın sədri Ədalət Muradov Şuranın səmərəli fəaliyyətinin biznes və cəmiyyət üçün faydalı olacağına əminliyini ifadə edib, səmərəli əməkdaşlıq üçün təşəkkürlərini çatdırıb.

# İqtisadiyyat Nazirliyi yanında İctimai Şurada müzakirə keçirilib



## 27 aprel 2022



İqtisadiyyat Nazirliyi yanında İctimai Şuranın təşkilatçılığı ilə növbəti ictimai müzakirə "Turizm sahəsinin inkişafı və perspektivləri" mövzusunda keçirilib. Tədbirdə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin, Dövlət Turizm Agentliyinin və turizm sahəsində fəaliyyət göstərən assosiasiya və ictimai birliklərin nümayəndələri iştirak edib. Görüşdə turizm sektorunda mövcud vəziyyət, bu sahəyə dövlət dəstəyi tədbirləri, sahibkarların qarşılaşdığı məsələlərlə bağlı müzakirələr aparılıb.



İclasda bildirilib ki, müzakirələrdə səsləndirilən təkliflər araşdırılacaq və aidiyyəti qurumlara təqdim ediləcəkdir.

# Mediasiya Şurası ilə görüş keçirilib



**13 may 2022**

İqtisadiyyat Nazirliyi yanında İctimai Şura təşkilatlarla, ictimai birlik və assosiasiyalarla müxtəlif məsələlər üzrə müzakirələrini davam etdirir. Şura üzvlərinin növbəti görüşü Mediasiya Şurası ilə təşkil olunub.




Tədbirdə İctimai Şuranın mediasiya prosesinin gələcək inkişafına dəstəyinin əhəmiyyəti vurğulanıb, bu sahədə uğurlu beynəlxalq təcrübənin tətbiqi barədə müzakirələr aparılıb.



Görüşdə təklif və tövsiyələr dinlənilib, qarşılıqlı fikir mübadiləsi aparılıb.

## Dövlət Xidmətində İctimai Şuranın üzvləri ilə görüş keçirilib

**26 May 2022**



İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində Nazirlik yanında İctimai Şuranın üzvləri ilə görüş keçirilib.
Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli İctimai Şura ilə əməkdaşlıq barədə fikirlərini bölüşüb, Xidmətin antiinhisar qanunvericiliyinin tətbiqi, istehlakçı hüquqlarının müdafiəsi, dövlət satınalmaları və digər sahələrdə həyata keçirdiyi tədbirlər barədə məlumat verib. Görüşdə İctimai Şuranın səmərəli fəaliyyətinin qərarların qəbulu zamanı ictimai rəy və vətəndaş maraqlarının təmin olunmasında, şəffaflığın daha da artırılmasında əhəmiyyəti vurğulanıb.
Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, İqtisadiyyat Nazirliyi yanında İctimai Şuranın sədri, professor Ədalət Muradov

cəmiyyətlə sağlam dialoqun genişləndirilməsi, vətəndaş cəmiyyəti institutları ilə əlaqələrin gücləndirilməsi baxımından görüşün faydalı olacağını qeyd edib.
Görüşdə vətəndaş cəmiyyəti institutları-İctimai Şura-Dövlət Xidməti arasında kommunikasiyanın təşkili barədə fikir mübadiləsi aparılıb, təkliflər dinlənilib, Dövlət Xidməti ilə İctimai Şura arasında əməkdaşlıq istiqamətləri müzakirə olunub.

## İctimai Şura növbəti ictimai müzakirə təşkil edib



**30 iyun 2022**

İqtisadiyyat Nazirliyi yanında İctimai Şura iqtisadi sahədə fəaliyyət göstərən ictimai birliklər və assosiasiyalarla ictimai müzakirələri davam etdirir. Növbəti ictimai müzakirə Azərbaycan Banklar Assosiasiyası ilə keçirilib.
Tədbirdə İctimai Şura və Banklar Assosiasiyası arasında əməkdaşlıq istiqamətləri barədə fikir mübadiləsi aparılıb.

Müzakirələr zamanı təkliflər səsləndirilib, Şura üzvlərinin sualları cavablandırılıb.





## İqtisadiyyat Nazirliyi yanında İctimai Şura və Dövlət Vergi Xidməti arasında görüş keçirilib

### 19 iyul 2022



Vergi qanunvericiliyinə ediləcək dəyişikliklərin sahibkarların maraqlarını təmsil edən ictimai birliklərlə birgə müzakirə çərçivəsində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (DVX) və Nazirlik yanında İctimai Şura arasında görüş keçirilib.

Görüşdə DVX-nin Vergi Siyasəti baş idarəsinin rəisi Nicat İmanov "Növbəti ilin büdcə vergi siyasəti çərçivəsində hazırlanmış Vergi Məcəlləsinə dəyişikliklərlə bağlı Qanun layihəsi" mövzusunda təqdimatla çıxış edib.

Qarşılıqlı müzakirə şəraitində keçirilən tədbirdə növbəti il üçün vergi qanunvericiliyində nəzərdə tutulan dəyişikliklərin əsas istiqamətləri ilə yanaşı, ötən dövrlər ərzində aparılmış islahatların müsbət

nəticələri barədə də İctimai Şura üzvlərinə ətraflı məlumat verilib. Nicat İmanov dəyişikliklərin əsas istiqamətlərindən olan investisiya mühitinin, eləcə də yerli istehsalın təşviqi üçün vergi yükünün azaldılması məqsədilə işğaldan azad edilmiş ərazilərimizdə, həmçinin aqrar emal sahəsində fəaliyyət göstərən vergi ödəyicilərinə vergi təşviqlərinin verilməsinin nəzərdə tutulduğunu diqqətə çatdırıb.

Görüş iştirakçılarına dəyişikliklər paketində sosial xarakterli güzəştlər vasitəsilə əhalinin vergi yükünün azaldılması, beynəlxalq reytinqlərdə ölkənin mövqeyinin qorunması, habelə bir sıra inzibatçılıq müddəalarının dəyişdirilməsi kimi istiqamətlər barədə də məlumat verilib.

## Əmlak Məsələləri Dövlət Xidmətində İctimai şuranın üzvləri ilə görüş keçirilib



**26 sentyabr 2022**

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətində Nazirlik yanında İctimai Şuranın üzvləri ilə görüş keçirilib. Tədbirdə əmlak idarəçiliyi üzrə məsələlər, İctimai Şuranın fəaliyyət istiqamətləri və ictimai iştirakçılıq prosesinə verə biləcəyi töhfələr müzakirə edilib.



Dövlət Xidmətinin rəisi Mətin Eynullayev İctimai Şura ilə əməkdaşlığın vacibliyini vurğulayıb, daşınmaz əmlakın qeydiyyatı, dövlət əmlakının özəlləşdirilməsi, torpaqların dövlət idarəetməsinin təşkili, kadastr uçot işləri və digər sahələrdə həyata keçirilən tədbirlər barədə məlumat verib. Bununla yanaşı, Xidmət rəisi işğaldan azad olunmuş ərazilərdə aparılan inventarlaşdırma işləri və yaradılan vahid informasiya paltforması barədə İctimai Şuranın üzvlərini məlumatlandırıb. Görüşdə mərkəzi icra hakimiyyəti orqanlarının fəaliyyətində vətəndaş cəmiyyəti institutlarının müəyyən edilmiş formada iştirakı, ictimai məsləhətləşmələr və ictimai rəyin nəzərə alınmasının əhəmiyyəti vurğulanıb. Bildirilib ki, xidmətlərə olan əlçatanlığın yüksəldilməsi, operativliyin və şəffaflığın artırılması, vətəndaş məmnunluğunun təmin olunması baxımından Dövlət Xidməti ictimai məsləhətləşmələrə önəm verir.



Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, İctimai Şuranın sədri Ədalət Muradov cəmiyyətlə sağlam dialoqun genişləndirilməsi, vətəndaş cəmiyyəti institutları ilə əlaqələrin gücləndirilməsi baxımından görüşün faydalı olacağını qeyd edib.

Görüşdə Dövlət Xidməti ilə İctimai Şura arasında kommunikasiyanın təşkili barədə fikir mübadiləsi aparılıb, təkliflər dinlənilib, əməkdaşlıq istiqamətləri müzakirə olunub.

## KOBİA-da İqtisadiyyat Nazirliyi yanında İctimai şuranın üzvləri ilə görüş keçirilib

### 01 dekabr 2022



İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyində (KOBİA) Nazirlik yanında İctimai Şuranın üzvləri ilə görüş keçirilib. Tədbirdə kiçik və orta sahibkarlıq, KOB-lara göstərilən dəstək və xidmətlər, İctimai Şuranın Agentliyin ictimai iştirakçılıq prosesinə verə biləcəyi töhfələr müzakirə edilib.



KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov KOB sahəsində görülən işlər, bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi, KOB-lara göstərilən dəstək və xidmətlərin əhatə dairəsinin genişləndirilməsi tədbirləri barədə məlumat verib. Bildirilib ki, KOBİA sahibkarlara göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması, bu sahədə operativliyin artırılması, sahibkar məmnunluğunun təmin olunması baxımından ictimai məsləhətləşmələrə önəm verir, KOBİA yanında İctimai Şura fəaliyyət göstərir.
Qarşılıqlı müzakirə şəraitində keçirilən görüşdə publik hüquqi şəxslərin fəaliyyətində vətəndaş cəmiyyəti institutlarının iştirakı,

ictimai məsləhətləşmələr və ictimai rəyin nəzərə alınmasının əhəmiyyəti vurğulanıb.
Görüşdə İctimai Şura üzvləri ilə əməkdaşlıq istiqamətlərinə dair fikir mübadiləsi aparılıb, təklifləri dinlənilib, sualları cavablandırılıb.

## İqtisadiyyat Nazirliyi yanında İctimai şuranın Azərbaycan Sığortaçılar Assosiasiyası ilə ictimai müzakirəsi keçirilib



### 27 yanvar 2023

İqtisadiyyat Nazirliyi yanında İctimai Şura iqtisadi sahədə fəaliyyət göstərən ictimai birliklər və assosiasiyalarla ictimai müzakirələri davam etdirir. Növbəti müzakirə Azərbaycan Sığortaçılar Assosiasiyası ilə keçirilib. Tədbirdə Azərbaycanda sığorta bazarının mövcud vəziyyəti, bu sahədə görülən işlər, beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi, assosiasiya tərəfindən şirkətlərə göstərilən dəstək və xidmətlərin əhatə dairəsi və digər mexanizmlər barədə məlumat verilib.

Görüşdə sığorta şirkətləri tərəfindən istehlakçılara göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması, bu sahədə operativliyin artırılması, istehlakçı məmnunluğunun təmin olunması məsələləri müzakirə olunub.




## İqtisadiyyat Nazirliyi yanında İctimai Şuranın üzvləri Milli Məclisin İqtisadi-siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri ilə görüşüb



.

**16 fevral 2023**

Görüşdə İctimai Şuranın məqsəd və vəzifələri, “İctimai iştirakçılıq haqqında” Qanunun tələblərinə uyğun olaraq görülən işlər, Şuranın Fəaliyyət Planı və digər məsələlər üzrə komitə üzvlərinə təqdimat keçirilib.



Milli Məclis üzvləri ilə Şuranın fəaliyyətinə dair fikir mübadiləsi aparılıb, əməkdaşlığın genişləndirilməsi istiqamətləri müzakirə olunub.







## Tikinti assosiasiyaları ilə ictimai müzakirə keçirilib

**15 mart 2023**

İqtisadiyyat Nazirliyi yanında İctimai Şuranın tikinti assosiasiyaları ilə görüşündə bu sahəni təmsil edən ictimai birliklərin təqdimatları keçirilib, dövlət-özəl əməkdaşlığına dair müzakirələr aparılıb.



İqtisadiyyat Nazirliyi yanında İctimai Şura iqtisadi sahədə fəaliyyət göstərən ictimai birliklər və assosiasiyalarla müzakirələri davam etdirir. Növbəti belə tədbir Azərbaycanda fəaliyyət göstərən tikinti assosiasiyaları ilə keçirilib.

Tədbirdə iştirak edən İctimai Şuranın sədri Ədalət Muradov qurumun İqtisadiyyat Nazirliyinin fəaliyyətində ictimai iştirakçılığın təmin edilməsi prosesinə dəstək verdiyini, müxtəlif mövzular üzrə təşkil olunan müzakirələrin dövlət-sahibkar dialoquna töhfə verməklə, bu sahədə əhəmiyyətli platformaya çevrildiyini vurğulayıb. Tədbirdə şuranın assosiasiyaların aidiyyəti qurumlarla kommunikasiya əlaqələrinin qurulması mexanizmləri diqqətə çatdırılıb, normativ hüquqi sənədlər hazırlanarkən inzibati orqanlarla ictimai birliklər arasında əməkdaşlığın əhəmiyyəti qeyd edilib.

Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyasının sədri Elxan Bəşirov tikinti materiallarının istehsalı sektorunun inkişafı, bu

sahədə fəaliyyət göstərən sahibkarların qarşılaşdıqları məsələlər və onların həllində dövlət-özəl əməkdaşlığına dair fikirlərini bölüşüb, qanunvericilik aktlarının hazırlanması zamanı ixtisaslaşmış assosiasiya və ictimai birliklərlə müzakirələrin təşkili, onların təkliflərinin nəzərə alınmasının önəmini vurğulayıb.

“Azərbaycan Tikinti İstehsalçıları Assosiasiyası” Kommersiya Hüquqi Şəxslərinin İttifaqının İdarə Heyətinin sədri Ramiz İsayev ölkədə tikinti materiallarının istehsalı sahəsində mövcud vəziyyət, bu sahədə görülən işlər, beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi istiqamətində ictimai birliklər tərəfindən şirkətlərə göstərilən hüquqi dəstək tədbirləri barədə məlumat verib.

Qarşılıqlı müzakirələr şəraitində keçən görüşdə tikinti sektorunu təmsil edən ictimai birliklərin təqdimatları olub, dövlət orqanlarının fəaliyyətində vətəndaş cəmiyyəti institutlarının iştirakı, ictimai məsləhətləşmələr və ictimai rəyin nəzərə alınmasının əhəmiyyəti vurğulanıb. Görüşdə İctimai Şura üzvləri ilə əməkdaşlıq istiqamətlərinə dair fikir mübadiləsi aparılıb, təkliflər dinlənilib, suallar cavablandırılıb.

## İqtisadiyyat Nazirliyi yanında İctimai Şura ilə Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında görüş keçirilib

**19 Aprel 2023**

İqtisadiyyat Nazirliyi yanında İctimai Şura ilə görüşdə Azərbaycanda özəl bölmənin inkişafı, sahibkarların qarşılaşdıqları məsələlər və onların həllində dövlət-özəl əməkdaşlığına dair müzakirələr aparılıb.

İqtisadiyyat Nazirliyi yanında İctimai Şura fəaliyyət planına uyğun olaraq iqtisadi sahədə fəaliyyət göstərən peşəkar ictimai birliklər və assosiasiyalarla müzakirələri davam etdirir. Növbəti belə görüş



Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) ilə keçirilib.

Qarşılıqlı müzakirələr şəraitində keçən görüşdə Azərbaycanda sahibkarlığın inkişafı, mövcud şəraitdə sahibkarların qarşılaşdıqları məsələlər və onların həllində dövlət-özəl əməkdaşlığının önəminə dair fikirlər bölüşülüb, ASK-nın bu istiqamətdə atdığı addımlar diqqətə çatdırılıb. Sahibkarların ASK ilə komunikasiya mexanizmləri, daxil olan təklif və şikayətlərin ASK tərəfindən aidiyyatı üzrə yönləndirilməsi modeli tədbir iştirakçılarının diqqətinə çatdırılıb. Tərəflər normativ-hüquqi aktların hazırlanması, sahibkarlıq sahəsində fəaliyyəti tənzimləyən qanunvericilik aktlarına dəyişikliklər edilməsi, ümumilikdə bu sahədə hüquqyaratma prosesində iş adamlarının və onların təmsil olunduğu ictimai birliklərin iştirakının əhəmiyyətini qeyd edib.

Görüşdə İctimai Şura üzvləri ilə əməkdaşlıq istiqamətlərinə dair fikir mübadiləsi aparılıb, təkliflər dinlənilib, suallar cavablandırılıb.

# İqtisadiyyat Nazirliyi yanında İctimai şura üzvləri ilə görüş keçirilib

## 16 may 2023

İqtisadiyyat Nazirliyi yanında İctimai Şura üzvləri ilə görüşdə dövlət-özəl əməkdaşlığının inkişafı, sahibkarlarla səmərəli kommunikasiyanın qurulması mexanizmləri müzakirə olunub.



İqtisadiyyat Nazirliyi yanında İctimai Şura iqtisadi sahədə fəaliyyət göstərən dövlət qurumları ilə müzakirələri davam etdirir. Növbəti belə tədbir Azərbaycan Respublikasının İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA) ilə keçirilib.

Tədbirdə iqtisadiyyatın davamlı inkişafının stimullaşdırılmasında dövlət-özəl əməkdaşlığının genişləndirilməsinin önəmi qeyd olunub, Agentliyin aidiyyəti qurumlarla və sahibkarlarla səmərəli kommunikasiyasının qurulması mexanizmləri barədə fikir mübadiləsi aparılıb. Müzakirələrdə normativ hüquqi sənədlərin



hazırlanması, eləcə də İZİA qarşısında qaldırılan məsələlərin həlli prosesində sahibkarlarla əməkdaşlığın və onların rəyinin nəzərə alınmasının əhəmiyyəti vurğulanıb.

Görüşdə İctimai Şura ilə əməkdaşlıq istiqamətlərinə dair fikir mübadiləsi aparılıb, təkliflər dinlənilib, suallar cavablandırılıb.

## İqtisadiyyat Nazirliyi yanında İctimai şura Sahibkarlığın İnkişafı Fondu ilə müzakirə keçirib



**18 iyul 2023**

Sahibkarların qarşılaşdıqları məsələlər və onların həllində dövlət-özəl sektor tərəfdaşlığının təmin edilməsi haqqında müzakirələr aparılıb.



İqtisadiyyat Nazirliyi yanında İctimai Şura iqtisadi sahədə fəaliyyət göstərən dövlət qurumları ilə müzakirələri davam etdirir. Növbəti belə tədbir Sahibkarlığın İnkişafı Fondu (SİF) ilə keçirilib.

Görüş zamanı Fondun güzəşt mexanizmləri, sahibkarlar üçün sərfəli biznes kreditlərinin təmin edilməsi və qarşılıqlı öhdəliklərin nizamlanması prosedurları ətraflı müzakirə edilib.

Həmçinin, SİF-in aidiyyəti qurumlar və sahibkarlarla kommunikasiya əlaqələrinin qurulması mexanizmləri diqqətə çatdırılıb, normativ hüquqi sənədlər hazırlanarkən fond və sahibkarlar arasında əməkdaşlığın əhəmiyyəti qeyd edilib.



Müzakirələr şəraitində keçən görüşdə müxtəlif sahələrdə fəaliyyət göstərən sahibkarların qarşılaşdıqları məsələlər və onların həllində dövlət-özəl sektor tərəfdaşlığının təmin edilməsi, problemli kreditlər zamanı qaldırılan məsələlərə baxılması mexanizmi, məsləhətləşmələr və sahibkarların rəyinin nəzərə alınmasının əhəmiyyəti vurğulanıb. Görüşdə İctimai Şura üzvləri ilə əməkdaşlıq istiqamətlərinə dair fikir mübadiləsi aparılıb, təkliflər dinlənilib, suallar cavablandırılıb.

PUBLICCOUNCIL.AZ
ICTIMAISHURA.AZ